Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) rükudan belini qaldırdığı zaman belə deyərdi: "Səmi Allahu limən həmidəh

İbn Əbu Əvfədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə belə demişdir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) rükudan belini qaldırdığı zaman belə deyərdi: "Səmi Allahu limən həmidəh, Allahummə Rabbənə va ləkəl-həmd, miləs-səməvati va miləl-ardi, va milə mə şitə min şeyin bəd".

[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) namazda rükudan belini qaldırdığı zaman belə deyərdi: Səmi Allahu limən həmidəh. Yəni: Kim Uca Allah həmd edərsə Uca Allah ona icabət edər, Onun həmd etməsini qəbul edər və onu mükafatlandırar. Sonra ''Allahummə Rabbənə va ləkəl-həmd, miləs-səməvati va miləl-ardi, va milə mə şitə min şeyin bəd'' sözü ilə Allaha həmd edər. Yəni: Göylər dolusu, yerlər dolusu, onların arasında olanlar və bundan sonra dilədiyin şeylər dolusu Uca Allaha həmd sənalar olsun.

http://sunnah.global/hadeeth/az/show/65101